**Azərbaycan Yazıçılar Birliyinin üzvü Musa Aslanxanlı müasir ədəbiyyatımızda tanınan imzalardandır. Bir neçə kitab müəllifi olan şairin növbəti - "Qarabağa yağan yağış" kitabında Vətən sevgisi, vətəndaşlıq duyğuları, Qarabağ savaşında parlaq qələbəmiz, şəhid və qazilərimizin qəhrəmanlığının bədii ifadəsi yer alıb. Yeni kitabı münasibətilə şairə təbriklərimizi və xoş arzularımızı ünvanlayır, yaradıcılığından nümunələri oxuculara təqdim edirik.**



Musa ASLANXANLI

## SAVAŞDAN OĞULLA BƏRABƏR KEÇMƏK...

*Vətən Müharibəsi qazisi*
*Mənsur üçün*

Könüllü döyüşə atıldı oğlum,
Yanan ürəklərə açıldı meydan...
Onunla bərabər özüm də keçdim
Savaşın o ağır sınaqlarından...

Fikri qəti idi, "getmə" desəydim,
Üzünə düşərdi şübhədən kölgə...
Mən nə sayılardım?! Vətəndaşlığım
Bir sınıq çöpə də dəyməzdi, bəlkə!

Mənim o halıma dözməzdi qələm,
Məni hər addımda acılardı o.
"Vətən" - bu kəlməni yazmaq istəsəm,
Qayıdıb gözümə sancılardı o...
Birinci fərari özüm olardım...
O söz qoy səslənsin düz ünvanında...
Gör neçə istehza, neçə kinayə
Qaldı kimlərinsə öz ünvanında...

Hər an ölüm anı - bu bir gerçəklik...
Şəhidim gələcək... günlər sayırdım.
Evdə anasına təskinlik verib,
Şəhid anasıtək ağırlayırdım...

Boğazdan yuxarı heç nə yazmayım,
Sözüm var hər gələn, ötən önündə...
Oğlumla şax durdum, əyilməz oldum,
Günahkar olmadım Vətən önündə...

Onun könüllütək səsi çox yerdə...
Bir səs var - səslərin ən ünlüsüdü...
Çox yerdə könüllü olsa da, oğlum
Birinci Vətənin könüllüsüdü!

## BU GÜNLƏRÇİN YAŞAMAĞA DƏYƏRMİŞ

Nələr oldu... araşdırdım, izlədim,
Vətən dedim, Zəfər Günün gözlədim...
Tanrı mənə möhlət versin, istədim...
Yox, bilməzdim ömrüm hara qədərmiş,
Bu günlərçin yaşamağa dəyərmiş!

Şəhidimiz neçə evdən, bölgədən...
Qazi, əsgər- şəhidliyə yol gedən...
Qalxıb, Sizlə nəfəs alıb bu Vətən,
Çatışmayan bu saf hava - Zəfərmiş!
Bu günlərçin yaşamağa dəyərmiş!

Ərənlərlə, igidlərlə söhbətim -
Vətən deyən oğullarmış sərvətim!..
Ömrə-günə belə artdı hörmətim -
Ta deməyim bu ömür-gün hədərmiş,
Bu günlərçin yaşamağa dəyərmiş!...

Haqq yenilməz! - deyə ordum, güc edib,
Yağıların çox niyyətin puç edib!
Yurd nisgilli neçə dərdlim köç edib -
Ruhlarını şad edən bu xəbərmiş,
Bu günlərçin yaşamağa dəyərmiş!

Tələsirsən... Səbr gərək bir qədər,
Abad olsun dağıdılmış kənd-şəhər,
Ürəyində həm sevinc var, həm kədər...
Bu qələbə - soy-kökünə layiq iş...
Bu günlərçin yaşamağa dəyərmiş!..

Qayıdış var - o inam var, o gün var...
Öndə neçə açılacaq düyün var,
Yurd yerləri, dağ var, göl var, əkin var!
Bu gün uğur, sabah yeni yüksəliş -
Bu günlərçin yaşamağa dəyərmiş!

## İGİD OĞULLARIN ANASI - VƏTƏN

Şəhidlik Vətənə sevgidi öncə,
Yeni bir ömürdü iman, din üstə...
Vətənin şəfalı əli olmalı
Şəhid yarasının, dərdinin üstə...

İgid oğulların anası - Vətən...
Bu xalq Qarabağdı, Vətən - Qarabağ...
Atanın, ananın çiyninə enən,
Zirvəyə yüksələn bayraqlara bax!..

Şəhidlik - Vətənə qovuşan ömür,
Deyin, ödənilər o haqq nə qədər?..
Şəhidlərin haqqın necə qaytaraq?
Bizə haqlarını halal edələr...

Halallıq verilsin o oğullara...
Görünür, əzəldən fərqliydi onlar...
Atadan halallıq istəyib, sonda
- Ay ata, - deyərək şəhid oldular...

Vətən sevgimizi qorumalıyıq,
Bu sevgi gör bizi ucaltdı hara!
Biz şəhid deyirik ruhu, canıyla
Vətən sevgisini qoruyanlara!..

## BİR MÜQƏDDƏS VƏZİYYƏTLƏ...

*Qarabağ uğrunda döyüşən*
*igidlərimizə*

Döyüş ruhu üstün gəldi hər duyğuya,
Nərəmizi ağır-ağır silahların
sədasına qata bildik.
Qarşımızda dağlar vardı, dağlar keçdik,
Qalibiyyət zirvəsinə çata bildik...

Vətən, oğul - bir ev idi, bu doğma ev
Sədaqətlə, məhəbbətlə zənginləşdi.
Oğulların ömür yolu! -
O ömrün dəyərindən dəyər tapdı -
Bu Vətənin, bu dövlətin ömür yolu
Ləyaqətlə zənginləşdi!

Biz yadların xülyasını, yalanını puç eylədik,
Biz xətt çəkdik saxta tarix üzərindən,
Böyük tarix həqiqətlə zənginləşdi!
Ataların vəsiyyəti unudulmaz...
Yenə ulu bir atanın vəsiyyəti! -
Tariximiz bu gün yeni
Bir müqəddəs vəsiyyətlə zənginləşdi!

Şəhidlərin qanı axan
ulu torpaq - bir xəzinə,
Bu xəzinə - birliyimiz, şərəfimiz,
Bu vardan al, ömrünə qat...
Bu xəzinə qarşısında baş əyməli,
Bu dəyərə tapınmalı
neçə ömür, neçə həyat...
Bizim ola bu torpağa layiq olan,
ləyaqətlə keçən həyat...

Torpağımız daha kol-kos bitirməsin,
Yurd yerləri
Xan çinarlı, bərəkətli bağlar olsun...
Sozalmasın,
ümidiylə, inamıyla nəğmə desin
Həkərimiz, Qarqarımız, Tərtərimiz,
Arazımız çağlar olsun!

**525- ci qəzet.- 2022- ci il.- 19 may.- S. 15.**